**Kolbasa və sosiska məhsullarında aparılan yoxlamaların nəticəsi**

Ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrindən kolbasa və sosiska məhsullarından nümunələr götürülərək, müayinə üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub. Belə ki, cari dövr ərzində 57-si kolbasa, 32-si sosiska olmaqla, ümumilikdə 89 adda məhsuldan nümunə götürülüb. Nümunələrin sınaq nəticəsinə əsasən, 80 məhsuldan götürülən nümunə normativ sənədlərin tələblərinə cavab verib.

6 istehsalçıya məxsus 9 məhsulda (6-sı kolbasa, 3-ü sosiska) uyğunsuzluqlar müəyyən edilib ki, bunlardan 4 məhsulda (3-ü kolbasa, 1-i sosiska) uyğunsuzluq təhlükəsizlik göstəriciləri ilə, 5-də isə (3-ü kolbasa, 2-si sosiska) etiket məlumatları ilə bağlıdır.

Nəzarət tədbirləri zamanı həmçinin, “Halal” adı ilə satışa çıxarılan kolbasa və sosiska məhsullarının analizi nəticəsində həmin məhsulların tərkibində donuz əti aşkarlanmayıb.

Agentlik tərəfindən məhsullarının təhlükəsizlik göstəriciləri ilə bağlı uyğunsuzluq aşkarlanan istehsalçı müəssisələrdə qanunvericiliyə uyğun yoxlamalar həyata keçirilir, həmin məhsulların satış şəbəkələrindən geri çağırılması, məhdudiyyətlərin tətbiqi, inzibati məsuliyyət və digər tədbirlər görülür. Yoxlamaların nəticələri barədə ictimaiyyətə ətraflı məlumat təqdim ediləcək.

Bununla yanaşı, AQTA istehlakçılara müraciət edir ki, satış şəbəkələrində təhlükəsizlik göstəricilərində uyğunsuzluq aşkarlanan kolbasa-sosiska məhsulu partiyalarını istehlak etməsinlər və bazarlarda aşkarlandığı halda dərhal Agentliyin “1003 − Çağrı Mərkəzi”nə məlumat versinlər.

Uyğunsuzluq aşkarlanan kolbasa-sosiska məhsulları və istehsalçıları ilə aşağıdakı cədvəldən tanış ola bilərsiniz:

**Multimonitorinq Planının icrası məqsədilə kolbasa və sosiska məhsullarından götürülmüş nümunələrdə aşkarlanan uyğunsuzluqlara dair**
**MƏLUMAT**

| № | Məhsulun istehsalçısı | Məhsulun əmtəə nişanı | Məhsulun növü | İstehsal tarixi | Aşkarlanan uyğunsuzluq |
|---|---|---|---|---|---|
| 1 | "Səhliyalı" Kiçik Müəssisəsi | "Səhliyalı" | yarım hisə verilmiş "Servelat" kolbasası | 10.02.2023 | Üzərində mal əti bəyan edilsə də, tərkibində toyuq DNT-si aşkarlanıb |
| 2 | Rəhimovların Ailə Təsərrüfatı | "Kəndli" | bişirilmiş hisə verilmiş kolbasa | 22.02.2023 | Üzərində donuz əti bəyan edilmədiyi halda, tərkibində donuz DNT-si aşkarlanıb |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | "Sevilən Ad" MMC | "Dilim-Dilim" | bişmiş "Lyubitelskaya" kolbasası | 21.02.2023 | Təhlükəsizlik göstəricilərində uyğunsuzluq aşkarlanıb |
| 4 | | "Əsl Dad" | bişmiş "Toyuq" kolbasası | 10.02.2023 | |
| 5 | | "Əsl Dad" | bişmiş "Doktorskaya" kolbasası | 20.02.2023 | |
| 6 | "Mir 2016" MMC | "Köhnə Dad" | yarım hisə verilmiş "Servelat" kolbasası | 04.02.2023 | Üzərində mal əti bəyan edilsə də, tərkibində mal DNT-si aşkarlanmayıb |
| 7 | "M&T" Ltd firması | "Sevimli Dad" | əla növ südlü sosiska | 05.02.2023 | Üzərində mal əti bəyan edilsə də, tərkibində mal DNT-si aşkarlanmayıb |
| 8 | "Səhliyalı" Kiçik Müəssisəsi | "Halal 5+" | "Sacüstü" halal sosiska | 04.02.2023 | Üzərində mal əti bəyan edilsə də, tərkibində mal DNT-si aşkarlanmayıb |
| 9 | "Ovçular Ət və Ət Məhsulları" MMC | "Ovçular" | "Külləmə" halal sosiska | 17.02.2023 | Təhlükəsizlik göstəricilərində uyğunsuzluq aşkarlanıb |